# Üzümün faydaları

Qiymətli bitki olaraq dünyanın bir sıra ölkələrində çox qədimdən becərilən üzümdən şərab, kişmiş, doşab (bəkməz) hazırlanır. FAO-ya (BMT ərzaq və kənd təsərrüfatı təşkilatı) görə dünyada yetişdirilən üzümün təxminən 71 faizi şərab istehsalında, 27 faizi süfrə üçün, 2 faizi isə kişmiş hazırlanmasında istifadə edilir.



Müəyyən edilmişdir ki, üzümün şirəsində bir sıra müalicə əhəmiyyətli olan maddələr vardır. Bunlardan şəkəri (qlükoza, fruktoza, saxaroza), dəmir duzlarını, kalium-permanqanatı, C və B qrupu vitaminləri, karotin, aşı, boyayıcı və pektin maddələrini və s. göstərmək olar. Üzüm tənəyinin yarpağının tərkibində çoxlu miqdarda C vitamini, karotin, aşı maddəsi, üzvi turşular və s. vardır.

Üzümün giləsi və şirəsi ürək-qan damar sistemi xəstəliklərində, tənəffüs yolları iltihabında, mədə-bağırsaq, qaraciyər, öd yolları və böyrək xəstəliklərində çox faydalıdır.

Üzümdən hazırlanan doşab və qurudulmuş üzüm giləri (mövüc) qanazlığında, ümumi zəiflikdə çox faydalı qüvvətverici vasitədir. Üzüm qorasından hazırlanan "abqora" isə xəstəliyin ilk dövründə çox yaxşı təsir göstərir. O, susuzluğun qarşısını almaqla yanaşı, xəstənin sağalmasını tezləşdirir.

# İdman xəbərləri

## Çempionat keçirilib

"Qəbələ Rayon İcra Hakimiyyətinin Kuboku uğrunda" idarə- müəssisə, təşkilat və bələdiyyələr arasında keçirilən futbol üzrə rayon çempionatı başa çatmışdır.

Rayon icra hakimiyyətinin dəstəyi, gənclər və idman idarəsinin təşkilatçılığı ilə keçirilən çempionatın əsas məqsədi gənclər arasında futbolun təbliği, futbolçuların idman ustalıqlarının artırılması, eləcə də perspektivli futbolçuların aşkar edilməsi olmuşdur.

Sentyabrın 20-də Qəbələ Olimpiya İdman Kompleksinin stadionunda start verilən çempionata rayonun yaşayış məntəqələrindən, eləcə də idarə və müəssisələrdən 12 komanda qatılmışdır. Üç yarımqrupda bir-birləri ilə görüşən komandalar dairəvi sistem üzrə mübarizə aparmışlar. Hər qrupdan yüksək xalla çıxan iki komanda yarımfinalda qarşılaşmış və qalib komandalar finala vəsiqə qazanmışlar.



Noyabrın 2-də yüzlərlə futbol azarkeşinin izlədiyi yarışların final mərhələsində Soltannuxa və Böyük Pirəli kəndlərinin komandaları qarşılaşmışlar.

Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən final oyununda Soltannuxa komandası Böyük Pirəli komandasına 2:0 hesabı ilə qalib gələrək birinci yeri tutmuşdur.

Yekunda rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov fərqlənən komandalara və hakimlər heyərtinə diplomlar, qalib komandalara isə kubok və diplomlar təqdim etmişdir.

Mərasimdə RİH başçısının müavini Arif Allahverdiyev iştirak etmişdir.

## Uğurlarımız davam edir

Bu yaxınlarda Bakı şəhərində Azərbaycan Pankration, Qrappling və MMA Federasiyasının təşkilatçılığı ilə keçirilən Qarışıq Döyüş növləri üzrə I Açıq Beynəlxalq turnirin II mərhələsi baş tutmuşdur. Həmin yarışda rayonumuzu I mərhələnin qalibi olmuş Elgün Həmzəyev təmsil etmişdir.

Gərgin idman mübarizəsi şəraitində keçən döyüşlərdə Elgün Həmzəyev rəqiblərinə qalib gələrək sertifkat və kubokla təltif olunmuş, növbəti mərhələyə vəsiqə qazanmışdır.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

## Məktəblilərimiz zona birinciliyində

Qəbələ rayon məktəblilərindən ibarət komanda 22-30 oktyabr tarixlərində şahmat üzrə Azərbaycan çempionatının Oğuz rayonunda keçirilən zona yarışlarında iştirak etmişdir.

Yarışlarda Nohurqışlaq kənd tam orta məktəbinin şagirdləri Aysun Əzizli 4 xalla komandamızın lideri olmuşdur. Tüntül kənd tam orta məktəbin şagirdi Ümid Abdukərimli, Əli Hacızadə, Nohurqışlaq kənd tam orta məktəbin şagirdi Əli Ağayev hərəsi 3 xal toplayaraq fərqləndirici yerləri tutmuşlar. 3 nəfər gənc şahmatçımız və 3 məşqçimiz yarışlarda fəal iştirak etdiklərinə görə təltif olunmuşlar.

**N. RİZVANOVA,**
**uşaq-gənclər şahmat idman məktəbinin direktor müavini.**

## NASA-nın kosmik aparatı Günəşə çox yaxınlaşdı

Günəş tacını tədqiq etmək üçün NASA tərəfindən kosmosa göndərilən "Parker Solar Probe" aparatı Günəşə yaxınlaşıb.

NASA-dan verilən açıqlamaya görə "Günəşin ölümcül istisi və radiasiyası ilə qarşılaşan "Parker Solar Probe" kosmik aparatımız Günəşə ilk yaxınlaşmasını həyata keçirib. Aparat günəşin 24 milyon kilometrliyindədir. Bu, rekord göstəricidir", - deyə açıqlamada bildirilib.

NASA-dan bildirilib ki, kosmik zond 343 min kilometr/saat sürətlə hərəkət edir. Maksimum yaxınlaşma nöqtəsində 19.9 milyon selsi dərəcə qeydə alınıb. 29 oktyabr tarixində isə alman-amerikan zondu "Hellios" Günəşə 26 milyon kilometr məsafədə yaxınlaşmışdı.

Astro fizik Yucin Parkerin şərəfinə adlandırılan "Parker Solar Probe" kosmik aparatı avqust ayında kosmosa göndərilib. 7 il ərzində Günəşin ətrafında 24 dövrə vuracaq.

## Rayonumuzda bu günədək 7 min 800 hektar sahəyə taxıl səpilib

Qəbələ rayonunun təsərrüfatlarında 2019-cu ilin məhsulu üçün 20 min 100 hektar sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır. Hazırda təsərrüfatlarda taxıl səpini mütəşəkkil qaydada davam etdirilir. Fermerlər bu günədək 4 min hektar sahəyə arpa, 3 min 800 hektara isə buğda səpiblər.

Bu barədə müxbirimizə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib.

## Bunları bilmək maraqlıdır

- Burunda sakit tənəffüs zamanı hava axınının sürəti saatda 2,4 kilometr, asqırdığı zaman isə saatda 170 kilometr təşkil edir.
- Şəhadət barmağı insan əlinin ən hissiyatlı barmağıdır.
- Skeletdə 200 sümük və 630 skelet əzələsi var.
- Ömür boyu insan dərisi 1000 dəfə dəyişir.
- Qripə səbəb olan 100 müxtəlif virus mövcuddur.
- Sevdiyimiz insana baxarkən göz almacığı 45% böyüyür.
- Fransızlar göyərçini "uçan siçovul" adlandırırlar.
- Hər bir kipriyin 5 ay ömrü var.
- Kainatda bu vaxta qədər ölənlərin sayı yaşayanların sayından azdır.
- Həşəratların dişləməsi ən çox ayaqlarda təsadüf edilir.

**Topladı: Səfa ASLANOV.**


# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

## qəzetinə

**2019-cu ilin birinci yarısı üçün abunə yazılışı davam edir**

**Yarımillik abunə qiymıti 15 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


## İTMİŞDİR

Solquca kənd sakini **Eyvazov Çingiz Dursun oğluna** məxsus «Niva» markalı avtomaşına verilmiş **36 BF 105 dövlət nömrə nişanı** itdiyi üçün onu tapanlardan həmin nömrə nişanının Qəbələ Rayon Polis Şöbəsinə təhvil verilməsi xahiş olunur.

---

BDYRİ-nin Yevlax RQİTBŞ tərəfindən Nic qəsəbə sakini **İslamov Elsevər Eldar oğluna** məxsus **«Mersedes Benz C 180» markalı 32 BD 492 dövlət nömrə nişanı** olan avtomaşına 23 aprel 2018-ci il tarixdə verilmiş AD seriyalı 109397 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 dekabr 1997-ci il tarixli 27 saylı qərarı ilə Soltannuxa-2 kənd sakini **Səmədov Bəylər Xurşud oğluna** verilmiş JN seriyalı 202 D nömrəli (kod 40602038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Əhmədov Telman Əhməd oğluna** verilmiş JN seriyalı 280 A nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Bağırov Xəlil Dəmir oğluna** verilmiş JN seriyalı 099 A nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətaması** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar islahat Komissiyasının 26 aprel 2002-ci il tarixli 03 saylı qərarı ilə Zarağan kənd sakini **Zəkəriyyəyev Əşrəf Şükür oğluna** verilmiş JN seriyalı 0618 nömrəli (kod 40608018) **torpağa mülkiyyət hüqüquna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli DİSPLAY 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Həşimov Həsənpaşa Məhəmməd oğluna** verilmiş JN seriyalı 991 A nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası DİN-nin BDYPİ Şəki regional Qeydiyyat İmtahan və Texniki Baxış Şöbəsi tərəfindən Bum qəsəbə (əvvəlki kənd) sakini **Məmmədov Orxan Oktay oğluna** 29 avqust 2017-ci il tarixdə verilmiş AE seriyalı 725060 nömrəli "BC" dərəcəli **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin 9 saylı ərazı idarəsi tərəfindən Nic qəsəbə (əvvəlki kənd) sakini **Dallari Roman Surenoviçə və ailə üzvlərinə** 07 may 2014-cü ildə verilmiş RX seriyalı 0398770 nömrəli (reyestr nömrəsi 406013015339, qeydiyyat nömrəsi 1914003338) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış,** 06 may 2014-cü il tarixli AA seriyalı 004225 nömrəli (reyestr nömrəsi 406013015339) **torpaq sahəsinin planı və ölçüsü** və Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 05 fevral 1999-cu il tarixli 03 saylı qərarı ilə verilmiş JN seriyalı 312 A nömrəli (kod 40600068) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1847*